# MARTIN FINGER SHIELD MARKALI BARMAQ QORUYUCULARIYLA TƏCHİZ EDİLMİŞ QARAJ QAPI SİSTEMLƏRİ

FINGER SHIELD MARTIN

# İNSTRUKSİYA
## (POLAD / MİS VƏ TAXTA QAPILAR)

MARTIN GARAGE DOORS™ SINCE 1936

A8949 UL REGISTERED FIRM ISO 9001
MARTIN DOOR MFG.

## XƏBƏRDARLIQ ! DİQQƏT

BU QAPILAR DÜNYANIN ƏN KEYFİYYƏTLİ VƏ ƏN ETİBARLI QAPILARIDIR. LAKİN ONLARIN QURAŞDIRILMASI, TƏNZİMLƏNMƏSİ VƏ TƏXNİKİ XİDMƏTİYLƏ ƏLAQƏDAR İŞLƏRİN TƏCRÜBƏSİZ İŞÇİLƏR TƏRƏFİNDƏN VƏ ETİNASIZ QAYDADA HƏYƏTA KEÇİRİLMƏSİ TƏHLÜKƏ YARADA BİLƏR. YAYLAR VƏ ONLARLA ƏLAQƏLİ HİSSƏLƏR CİDDİ YARALANMA VƏ YA ÖLÜM HALLARINA SƏBƏB OLA BİLƏR! ƏGƏR ƏMİN DEYİLSİNİZSƏ MARTIN DOOR ŞİRKƏTİNİN DİLERİNƏ ZƏNG EDİN

### TEXNİKİ XİDMƏT

- Bütün rəzə, təkərcik valları və yayları yüksək keyfiyyətli 10/40 maşın yağlarıyla yağlayın. Rahat işləyə bilməsini təmin etmək üçün hər il yağlayın. Mexanizm hissələrindən cırıltı səsinin çıxmasına yol verməyin!
- Dəmir qapının barmaq qoruyucularının ön kənarına, daxili taxta qapılarının isə hissələrinin birləşmələrinə hər il mum çəkin. Bundan əlavə Geri Hərəkət Qoruyucularına və ya qapının yan kənarlarına (qapı bağlandıqda örtən hissələrinə) mum çəkin.
- Lazım olduqda qalvanizləşdirilmiş hissələrin təmiz görünüşünü qoruyub saxlamaq üçün onları biraz yağlanmış parçayla silin. Rütubətli və nəm yerlərdə qalvanizləşdirilmiş hissələrin paslanmasının qarşısını almaq üçün onların boyanması tələb oluna bilər.
- Polad qapıların rənglənməsi üçün "touch-up" tipli boyaların istifadə edilməsi məsləhət görülmür. Son səhifədəki "Boyama nəzəriyyəsi" fəsilini oxuyun.
- Tələb olunduqda polad qapının seksiyalarından çirki, duz qalıqlarını v.s. yuyun. Avtomobil tipli təmizləyici maddələr və kremlər boyanın görünüşünü yaxşılaşdıra bilər və ya kifayət qədər xidmət edilməyən polad qapının ömrünü uzada bilər. Həddindən artıq nəmli, duzlu və ya aşındırıcı yerlərdə kremləmə və ya rəngləmənin tez-tez aparılması lazım ola bilər. Taxta qapılarla əlaqədar məlumat almaq üçün "Taxta qapılara dair qeydlər"in olduğu səhifəyə baxın.
- Akril pəncərə şüşələrindəki çızıqları keyfiyyətli plastik pəncərələr üçün nəzərdə tutulmuş təmizləyici maddələrlə aradan götürün.

### QAPI AÇMA MEXANİZMİ (Biz Martin Qapı Açma mexanizmlərini tövsiyə edirik)

- Elektriklə hərəkətə gətirilən açma mexanizmini istifadə etdikdə həmişə qaraj qapısını tamamən nəzarət altında saxlayın.
- İstehsalatçının instruksiyasına uyğun olaraq hər ay elektriklə işləyən açma mexanizminin avtomatik geri qayıtma funksiyasını yoxlayın.
- Martin Doors markalı qapıların layihəsi uşaqlar və böyüklərin içəridə qalma və yaralanma riskini azaltmaq üçün nəzərdə tutulmuşdur. Baraban Qoruyucuları, Barmaq Qoruyucuları, Az Çıxan Rəzələr, Geriyə Hərəkət Profillərinin Qoruyucuları, Daxili Qaldırma Trosları, Yumru Polad Kənarlar v.s. uşaqların əlavə təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuşdur.
- Sallanan bütün ipləri aradan götürün və qaraj qapısını kilidləyən bütün mexanizmləri passiv vəziyyətə gətirin.
- Mərkəzdə quraşdırılan açma mexanizmi üçün qapının ən üst seksiyasında tam uzunluğa malik tirlə təmin edilməlidir. Açma mexanizmləri genişliyi 12'3" (3734)-dən daha az olan qapılarda yan tərəfdə quraşdırıldığı təqdirdə tir lazım olmaya bilər.

### ZƏRƏRLİ TÜSTÜLƏR

Qapı vasitəsi ilə qarajı bayırdakı havadan tamamən təcrid ETMƏYİN! Məkanı binaların istismarına dair yerli qaydalara uyğun olaraq ventilasiya edin

DİQQƏT! Qarajda və evdə karbon monoksid qazının az miqdarı belə baş ağrısı və qripə oxşar simptomların yaranmasına səbəb ola bilər. Alışqan maddələr və zərərli tüstülərin sağlamlıq üçün riskinin azaldılması məqsədi ilə əlavə ventilasiya tələb oluna bilər.

### TƏCRİD ETMƏ

Martin Doors markalı qapılarda istifadə edilən təcrid etmə sistemi məlum olan bütün bina istismar qaydalarına uyğundur. Bu qapılar Omega Point Labaratories şirkətinin laboratoriyalarında sınaqdan keçirilmiş və onların tüstü və alovun yayılmasına dair UBC-26-8 standartında uyğun olduğu təsdiq edilmişdir. Təcrid etmə materialının çıxardılmasının mümkünlüyü və yenidən istifadə edilə bilməsi imkanı yerə basdırılan tullantının miqdarının azaldılması və ətraf mühitin qorunmasına kömək edir!

### ƏZİLMİŞ YERLƏRİN TƏMİRİ (Polad qapılara aiddir)

Martin markalı adi və təcrid edilmiş qapıların seksiyaları dünyada əzilməyə qarşı ən çox müqavimətli qapılar sırasında yer alır. Bu tip qapıların təcrid etmə materiallarıyla gücləndirilməsinə ehtiyac yoxdur. Unikal konstruksiya sayəsində qapı üzünün uzun müddət əzilmiş qalmasının qarşısının alınması üçün qapının bir seksiyasının və ya tamamının dəyişdirilməsi lazım olmaya bilər. Əzilmiş yerlərin təmiriylə əlaqədar məlumat üçün 18-ci səhifəyə baxın.

### ZƏMANƏT

Martin şirkətinin zəmanəti qapının öz sahiblərinə verilir. Evlərdə istifadə edilən qapıların çoxu üçün ömür boyu zəmanət verilir (Montana ştatında 12 il). Şirkətlər və kiraya verilən obyektlər ve taxta qapılar üçün zəmanətin müddəti 5 ildir. Dəyişdirilən hissələrin daşıma və quraşdırma xərcləri zəmanətə daxil deyildir. Yayların istismar müddəti məhduddur. Qeyd: Münasib texniki xidmət sayəsində bütün Martin Doors markalı qapıların (yaylar istisna olmaqla) ömür boyu istismar edilə bilməsi nəzərdə tutulub. Zəmanət və məhdudiyyətlərlə əlaqədar yazılı şəkildə təfərruatlı məlumat almaq üçün Martin markalı məhsulları aldığınız dilerə müraciət edin.

**Martin Door Manufacturing** Salt Lake City, Utah 84127-0437 U.S.A www.martindoor.com Printed in the U.S.A. 20m Copyright © 2004 **7/2004** AD-01IM-07

# MARTIN FINGER SHIELD MARKALI QARAJ QAPI SİSTEMLƏRİ*

•TƏHLÜKƏSIZLIK SEKSIYASIYLA TƏCHIZ EDILMIŞDIR •TƏHLÜKƏSİZLİK CIĞIRIYLA TƏCHİZ EDİLMİŞDİR •TƏHLÜKƏSİZLİK YAYIYLA TƏCHİZ EDİLMİŞDİR

*UŞAQLAR VƏ BÖYÜKLƏRİN QARAJ QAPISI TƏRƏFİNDƏN ZƏDƏLƏNMƏSİ HALLARININ QARŞISINI ALMAĞA KÖMƏK EDİR










COPYRIGHT © 2004 MARTIN DOOR